# İŞIQ

*İctimai-siyasi qəzet*

Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №02 (7491) | 7 fevral 2021-ci il | Bazar | Qiyməti 20 qəp.


# Şirvanda 20 Yanvar şəhidlərinin xatirəsi yad edildi



**20 Yanvar faciəsinin ildönümü hər il ölkəmizdə dövlət səviyyəsində geniş qeyd edilib. Bu il isə faciənin 31-ci ildönümü Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun tarixi torpaqlarımızı erməni işğalından azad edilməsi ilə əldə olunan Zəfərin yaratdığı yüksək əhval-ruhiyyədə qeyd edilir. Qələbə nəticəsində azadlığımız, müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda canından keçən 20 Yanvar, I, II Qarabağ müharibəsi şəhidlərinin qanları yerdə qalmadı, ruhları şad oldu.**

Bu il ilk dəfə şəhidlərimizi qalib, bütöv ölkənin vətəndaşları olaraq yad edirik. Faciənin ildönümü dünyanı bürüyən koronavirus (COVİD-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi qaydaları çərçivəsində keçirilir.

20 Yanvar faciəsinin 31-ci ildönümünün qeyd edilməsinə Şirvan şəhərinin Şəhidlər Xiyabanında aparılan abadlıq-quruculuq, yenidənqurma işləri ilə başlanıldı. Bu gün -yanvarın 20-də Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri xüsusi karantin rejiminin qaydaları gözlənilməklə öncə Ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucalan abidəsini ziyarət etdilər. Abidə önünə gül-çiçək dəstələri qoyaraq əziz xatirəsinə dərin ehtiramlarını ifadə etdilər.



Sonra isə Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan Şirvan şəhidlərinin uyuduğu Şəhidlər Xiyabanı ziyarət olundu. İcra başçısı öncə şəhidlərin xatirəsinə ucaldılan Əbədi məşəl abidəsi önünə gül dəstəsi qoydu. Şəhər rəhbərliyi və ictimaiyyət nümayəndələri şəhid məzarlarını və itkinlərin xatirəsinə ucaldılan abidəni də ziyarət edərək önünə tər qərənfillər düzdülər.

Şəhid ailələri Xiyabanda aparılan abadlıq-quruculuq və yenidənqurma işlərinə, Vətən müharibəsi şəhidlərinə, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını və təşəkkürlərini bildirdilər.

İcra başçısı və hüquq-mühafizə orqanlarının rəhbərləri Şirvan şəhərindən I Qarabağ müharibəsində şəhid olan Milli Qəhrəmanlar Nofəl Quliyevin, Tahir Bağırovun, Rəfael Həbibovun büstlərini ziyarət edərək xatirələrini yad etdilər, önlərinə tər güllər qoydular.

Şəhərin el qəbiristanlığında uyuyan şəhidlərin məzarları da ziyarət edildi, ruhlarına dualar oxundu.

Daha sonra həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun məzarüstü abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyuldu.

Saat 12:00-da ölkəmizin hər yerində olduğu kimi, Şirvan şəhərində də 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, avtomobillərdən səs siqnalları verildi.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Yanvarın 19-da Koronavirus (COVİD-19) infeksiyası əleyhinə şəhər əhalisi arasında aparılacaq vaksinləşmə prosesinin təşkilinə və görüləcək işlərə həsr olunmuş video-müşavirə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun sədrliyi ilə keçirildi.**



# Şirvan şəhər İcra Hakimiyyətində video-müşavirə keçirildi

Müşavirədə DTX-nin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Polis şöbəsinin rəisi Hikmət Quliyev, Mərkəzi Şəhər Xəstəxanası Publik Hüquqi Şəxsin direktoru İlham Mustafayev, İcra Hakimiyyəti başçısının müavinləri, aidiyyəti qurumların rəhbər və məsul əməkdaşları iştirak etmişdir.

Video-müşavirədə giriş sözü ilə çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə 2021-ci ilin yanvar ayının 19-dan əhalinin vaksinləşmə prosesinə başlanılacağını qeyd etdi. Bildirdi ki, Prezident Administrasiyasının tövsiyələrinə uyğun olaraq Şəhər İcra Hakimiyyəti aidiyyəti qurumlarla birgə əhalinin vaksinləşmə prosesinin yüksək mütəşəkkilliklə keçirilməsi üçün zəruri tədbirlər görmüş, sakinlər arasında təşkilati-izahat işləri aparmışdır.

Koronavirus (COVİD-19) infeksiyası əleyhinə şəhər əhalisi arasında vaksinləşmə prosesinin yüksək səviyyədə təşkil edilməsi məqsədi ilə Şirvan Şəhər İcra Hakimiyyəti başçısının Sərəncamı əsasında Vaksinasiya Qərargahı, Şəhər İcra Hakimiyyətinin, Polis Şöbəsinin, Təhlükəsizlik Xidmətinin və Mərkəzi Xəstəxananın nümayəndələrindən ibarət işçi qruplarının yaradıldığı qeyd edilmişdir. Bildirilmişdir ki, işçi qrupları əhali arasında müvafiq izahat işlərini davam etdirməli, vaksinləşmə prosesinə nəzarəti həyata keçirməli və tədbirin yüksək mütəşəkkilliklə keçirilməsini təmin etməlidir.

Video-müşavirədə koronavirus (COVİD-19) infeksiyası əleyhinə şəhər əhalisi arasında vaksinləşmə prosesinin xüsusi karantin rejiminin qaydaları gözlənilməklə yüksək mütəşəkkilliklə keçirilməsinin təşkil edilməsi istiqamətində aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən görülən işlər barədə ətraflı məlumatlar verildi.

Həyata keçiriləcək vaksinləşmə prosesinə hazırlığın təmin edilməsi, bu məqsəd üçün yaradılmış xüsusi məntəqədə lazımı təhlükəsizlik tədbirlərinin görülməsi, dezinfeksiya işlərinin aparılması, sosial məsafənin gözlənilməsi, maskadan istifadəyə ciddi nəzarətin həyata keçirilməsi, vaksinlərin daşınmasına, saxlanılmasına yönəlik profilaktik tədbirlərlə bağlı təkliflər irəli sürüldü.

Sonra Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov həlli vacib olan məsələlərlə bağlı aidiyyəti qurumların rəhbərlərinə, məsul əməkdaşlara müvafiq tapşırıq və tövsiyələr verdi. Qərargah üzvlərinə və işçi qruplarına uğurlar arzu etdi.

# İcra Hakimiyyətinin başçısı və millət vəkili Şirvan şəhərində görülən abadlıq-yenidənqurma işləri ilə tanış olub



**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş çoxsaylı Dövlət Proqramlarının uğurlu icrası nəticəsində 2020-ci ildə Şirvan şəhərində genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb. Ölkə rəhbərinin birbaşa göstərişi, diqqət və qayğısı sayəsində ölkəmizi əhatə edən abadlıq işlərinin davamı olaraq magistral və məhəllədaxili yollara asfalt çəkilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə çoxmənzilli yaşayış binalarının təmir olunması, yeni məktəb binalarının, körpələr evi-uşaq bağçalarının tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması, nümunəvi məhəllələrin, park və yaşıllıqların salınması bunun bariz nümunəsidir.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü, millət vəkili İltizam Yusifov, İcra Hakimiyyətinin məsul işçiləri, aidiyyatı qurumların nümayəndələri ilə birgə Şirvan şəhər ərazisində aparılan abadlıq, təmir-bərpa və tikinti işləri ilə yerində tanış olub.

Öncə T.Ələkbərov küçəsində piyadalar üçün yeni salınan səkiyə, F.Eynullayev küçəsi 9 saylı binanın qarşısında tikintisi başa çatan yeni məhəlləyə baxış keçirilib, görülmüş işlərin mövcud vəziyyəti ilə maraqlanılıb. 28 May küçəsi 3, 4, 5 və 7 saylı binaların qarşısında yekunlaşmaq üzrə olan abadlıq işləri ilə yerində tanış olunub, belə ki əraziyə tamet tavalar döşənib, söhbətgahlar qurulub, binalara dam örtüyü vurulub, avtomobillərin saxlanması üçün ərazilər və məhəllədaxili yollar asfaltlanıb.

Sonra millət vəkili və şəhər icra başçısı aidiyyəti qurumların rəhbərləri ilə birlikdə 2021-ci ildə görüləcək abadlıq işləri ilə bağlı ərazilərə baxış keçirib. Bildirilib ki, bu il Bağ evləri yaşayış massivinə, Naxçıvan, Xəqani, N.Nərimanov, Energetik küçələrinə asfalt betion örtüyünün vurulması planlaşdırılır. Çılpaqlı yaşayış massivində, Mahir Mirzəyev küçəsində, Kənd evləri yaşayış massivində asfalt beton örtüyünün vurulması nəzərdə tutulan küçələrə baxış keçirilib və müvafiq tövsiyələr verilib. İcra başçısı İlqar Abbasov bəzi küçələrdə işqılandırma sistemlərinin yeniləri ilə əvəz olunmasına, səkilərin bərpasına, habelə şəhərin müxtəlif ərazilərində yerləşən dalan və ara küçələrinin də asfaltlanmasına dair müvafiq tapşırıqlar verib.



Daha sonra "İDEA" İctimai Birliyinin təşəbbüsü ilə yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması və rahat yaşam şəraitinin yaradılması məqsədi ilə həyata keçirilən "Bizim həyət" layihəsinə uyğun olaraq L.İbrahimov 4, 20 Yanvar 4a saylı binaların qarşısında salınacaq "Abad məhəllə"nin layihəsi ilə tanış olublar. Bu, "İDEA" İctimai Birliyinin təşəbbüsü ilə Bakı şəhərindən sonra ilk olaraq Şirvan şəhərində salınacaq ikinci abad məhəllə olacaq.

Görülən işlərlə tanışlıq zamanı şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və millət vəkili İltizam Yusifov həmin ərazilərdə yaşayan sakinlərlə görüşüb, onların problemlərini dinləyiblər. Sakinləri narahat edən məsələlərin qısa zaman ərzində həllini tapmasi üçün müvafiq tədbirlərin görüləcəyini bildirərək sakinləri əmin ediblər ki, şəhərdə abadlıq-quruculuq işlərinin uğurla davam etdirilməsi üçün lazımi bütün imkanlardan istifadə ediləcəkdir.

Sakinlər bütün dünyanı bürüyən pandemiya vəziyyətinə baxmayaraq, vətəndaşların rahatlığı üçün şəhərdə aparılan abadlıq və quruculuq işlərini yüksək qiymətləndirib, görülən işlərə, əhaliyə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıq dolu ürək sözlərini ifadə ediblər. Səmimi söhbət edən sakinlər bu gün Azərbaycanda vətəndaş amilinin ön planda dayandığını, icra başçısının və millət vəkilinin sakinləri narahat edən məsələlərlə yerində maraqlanmasını vətəndaşlara göstərilən qayğının bariz nümunəsi kimi qeyd ediblər.

## VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

# GENERAL POLAD HƏŞİMOV ONUN KOMANDİRİ İDİ

**4 günlük Aprel döyüşlərinin iştirakçısı Süleyman qan-qadanı gözləri ilə görmüşdü. Və həmin döyüşlərdən sonra o bir daha əmin olmuşdu ki, sülh içində yaşamaq üçün düşmənlə mübarizə aparmaq mütləqdir. Odur ki, general-mayor Polad Həşimovun qisasını almaq və Qarabağı düşmən tapdağı altından azad etmək üçün Süleyman keçən ilin sentyabrında könüllü Vətən müharibəsinə, cəbhəyə yollandı...**




Bağırov Süleyman Loğman oğlu 1992-ci il fevralın 1-də Sabirabad rayonunun Sərxanbəyli kəndində dünyaya göz açıb. Doğulduğu ildən valideynləri ilə birlikdə Şirvan şəhərinə köçüb, Bağırovlar ailəsinin 3 oğul övladından ilki olan Süleyman, 1999-cu ildə Şirvan şəhərindəki şəhid Məftun Osmanov adına 20 nömrəli məktəbin 1-ci sinifində təhsilə başlayıb. S.Bağırov eyni zamanda şahmat məktəbində şahmatın sirlərinə yiyələnib. O Azərbaycan dili və ədəbiyyatı, eləcə də tarix fənlərinə xüsusi maraq göstərib. Dəfələrlə regional fənn olimpiadasında inşa yazı müsabiqələrinin qalibi olub.

Süleyman şahmat sahəsində də uğurlu nəticələri ilə seçilib. Belə ki, 2005-ci ildə oğlanlar arasında (14 yaş) dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş 3-cü respublika şahmat turnirində 1-ci yeri tutub. 2005-ci ildə 12 noyabr Konstitusiya gününə həsr olunmuş şahmat yarışlarında və Xocalı faciəsinə həsr olunmuş şahmat turnirində 1-ci yerə layiq görülüb.

2010-cu ildə 20 nömrəli məktəbi bitirdikdən sonra Süleyman Bağırov elə həmin il Bakı Mədəniyyət və İncəsənət Universitetinin Sənətşünaslıq fakültəsinə daxil olub. O tələbəlik illərində universitetin Tələbə Gənclər Təşkilatının üzvü olmaqla yanaşı həm də ictimai əsaslarla bir neçə televiziya kanalları ilə əməkdaşlıq edib.

2015-ci ildə N saylı hərbi hissədə həqiqi xidmətə başlayıb.Hərbi sirlərə yiyələnməklə yanaşı istedadlı şahmatçı kimi də fərqlənib. Hərbi hissələrarası şahmat turnirində 1-ci yerə layiq görülüb.

Süleyman Bağırov xidməti dövründə hərbi təhsilə cəlb edilib, o Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuyaraq leytenant rütbəsini alıb.

Süleyman ilk dəfə hərbi xidməti dövründə motoatıcı olaraq müxtəlif hərbi təlimlərdə iştirak edib. Hədəflərin düzgün nişan alınmasında və əməliyyatların yerinə yetirilməsində əsl hərbçi fəallığı göstərib.

2016-cı ildə Azərbaycan tarixinə 4 günlük müharibə kimi daxil olan Aprel döyüşlərində rəşadətlə vuruşan əsgər və zabitlərimiz arasında məhz Süleyman Loğman oğlu Bağırov da var idi. O mövqelərimizin düşmən qüvvələrindən azad edilməsində böyük mərdliklə vuruşub. Motoatıcı S. Bağırov erməni silahlılarının xeyli hərbi texnikasını və canlı qüvvəsini məhv edib. Qeyd edək ki, general-mayor Polad Həşimov Süleyman Bağırovun komandiri idi.

S. Bağırov ordu sıralarında təxris edildikdən sonra Şirvan şəhərindəki "Oba" marketlər şəbəkəsində inzibztçı kimi çalışıb. Eyni zamanda fəal gənc olduğu üçün Şirvan Gənclər Evində tədbirlərdə fəallığı ilə fərqlənib.

Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov müsahibəsində Süleyman haqqında deyir: "Süleyman olduqca çox fəal gənc idi, Gənclər Evinin bir çox tədbirlərində fəal iştirak etmişdir. Əsasən də intellektual yarışlarda və şahmat turnirlərində yüksək nəticələri ilə seçilirdi. Şeirlər də yazardı Süleyman. Bir sözlə, hərtərəfli gənc idi və o bizim yaxın dostumuz idi..."

Aprel döyüşlərin ən ağır sınaqlarından çıxmış Süleyman hər an vətənin çağırışına hazır idi.

2020-ci ilin 27 sentyabrında Ermənistan hərbi qüvvələri atəşkəsi pozarkən Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücuma keçmişlər. 29 sentyabr tarixində Süleyman Bağırov cəbhəyə yola düşüb. Mürəkkəb relyefə malik olan Qarabağda aparılan hərbi əməliyyatlarda uğurla iştirak edən Süleyman Cəbrayılın düşmən tapdağından azad olunmasında rəşadətlə vuruşub. O Füzuli istiqamətində qəhrəmancasına şəhid olmuşdur. Süleyman Bağırov yaşadığı Şirvan şəhərində izdihamla Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Vətənin bütövlüyü uğurunda sinəsini sipər etmiş şəhid leytenant Süleyman Bağırov 2019-cu ilin 15 dekabr tarixində ailə qurmuşdu. 1992-ci ildən Şirvan şəhərində müxtəlif ünvanlarda bu günə qədər kirayə mənzillərdə yaşayan valideynlərinə və həyat yoldaşı Mehribana: "Mütləq geri dönəcəyəm" - demişdi...

Vətənin erməni işğalından azad edilməsi uğrunda döyüşlərdə nümunə göstərərək 28 yaşlı şəhid leytenant Süleyman Bağırovun yoxluğunu heç nə əvəz etmir. Anası Nailə xanım və atası Loğman bəy Süleymanın yoxluğu ilə barışa bilməsələr də onlar çox böyük fəxarət hissi keçirirlər. Çünki, vətənpərvər ruhda böyütdükləri Süleymanın Qarabağın azad olunması arzusunu elə Süleyman özü şəhid silahdaşları ilə reallaşdırdı, Qarabağ azad oldu, Azərbaycana qovuşdu.

Süleyman Bağırov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

**Həmidə Fazilqızı,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# CƏSUR KƏŞFİYYATÇI HADRUTDA ƏBƏDİYYƏTƏ QOVUŞDU



**O, hələ uşaq yaşlarından hərbiçi olmaq arzusunda idi. Evdə ata və anasına, məktəbdə isə müəllimlərinə bu barədə danışmışdı. Bu da səbəbsiz deyildi. Qonşusu Milli Qəhrəman Tahir Bağırov haqqında çox eşitmişdi. Hətta Alik Rzayevin «Şirvanın Milli Qəhrəmanları» adlı kitabını da hardansa əldə etmişdi. Kitabda qonşusu şəhid Milli Qəhrəman Tahir Bağırov haqqında yazıları dönə-dönə oxumuşdu. Və özünə söz vermişdi ki, mən də qonşum Tahir kimi qəhrəman olacağam...**

Namiq İlyas oğlu Xəlilov 15 iyun 1992-ci ildə Şirvan şəhərində sürücü ailəsində anadan olmuşdur. Ailədə 2 qardaş, bir bacı idilər. Namiq evin böyük övladı idi. Şəhər 11 nömrəli tam orta məktəbi bitirdikdən az sonra hərbi xidmətə yollanır. Orada bacarıqlı əsgər kimi özünü göstərib. Hərbi hissə komandiri tərəfindən təşəkkür və tərifnamələr, fəxri fərmanlar alıb. Geri döndükdən az sonra arzusunun dalınca düşüb 6 ay xüsusi təyinatlıların hərbi hissəsində kurs keçdikdən sonra Gəncə batalyonunda, daha sonra Bakıdakı «N» saylı hərbi hissədə gizir kimi xidmətə başlayır. Rəhbərlik onun cəld və çevik olduğunu, üzərinə düşən hər bir işin öhdəsindən məharətlə gəldiyini nəzərə alıb manqa komandiri təyin edir...

O kəşfiyyatçı idi. Komandiri olduğu kiçik dəstə ilə kəşfiyyata çıxır, ermənilərin döyüş yerlərini, gizli planlarını öyrənib komandanlığa vaxtında məlumat verirdi.

2016-cı ildəki Aprel döyüşlərində onların da xidməti az olmamışdı. Öyrənirəm ki, 2020-ci ilin iyun döyüşlərində də Namiqin igidliyi çox olub.

10 ildən artıq hərbi xidmət zamanı Gürcüstan, Türkiyə Respublikalarında da hərbi təlimlərdə olub. Əsl kəşfiyyatçı kimi özünü doğrultmuşdur. Müharibə başlayanda- 2020-ci il sentyabrında onların kəşfiyyat qrupu cəbhə bölgəsində idi. Cəbrayıl, Füzuli, Hadrut və digər rayon və kəndlərdə erməni quldurları ilə vuruşmalı olurlar. Füzulinin azad olunması zamanı ağır döyüşdə güllə yarası alan Namiq Xəlilov xəstəxanada bir neçə gün müalicə olunduqdan sonra tam sağalmamış təkidlə yoldaşlarının yanına qayıdıb döyüşə başlayır. Onun axırıncı döyüşü 16 oktyabrda Hadrut uğrunda oldu. Artilleriyadan atılan mərmi nəticəsində igid həmyerlimiz ağır yaralanaraq şəhid oldu.

O, ailəli idi. Həsən adında 3 yaşlı oğlu və 1 yaşında Aydan qızı var.

Namiqin anası Təzəgül xanım söhbət zamanı kövrəlsə də, bildirdi ki, mən oğlumla fəxr edirəm O, Vətən yolunda şəhid olub və həm də vətənin oğludur.

Bacısı Səbinə:

-Mən də qardaşımla fəxr edirəm. Hər evə gələndə hamımıza baş çəkirdi. Üç yaşlı qızım Məryəmi övladlarından ayırmırdı. Həmişə onu hədiyyələrlə sevindirirdi. Onun ölümünü qızıma bildirməmişik. Deyir ki, polis dayım gələndə (elə bilirdi ki, Namiq polisdir) mənə hədiyyə alacaq.

Qardaşı Namid:

-Mən də əsgərəm. Hərbi hissədən qısamüddətli məzuniyyətə gəlmişəm. Qardaşımla bağlı xatirələrim çoxdur. O futbolçu və həm də azarkeş idi. Komanda düzəltmişdilər. Qonşu rayonlara yoldaşlıq yarışlarına gedəndə bəzən özü ilə məni də aparardı. Deyərdi ki, sənin ayağın düşərlidir, qələbə ilə qayıdırıq.

Bu ailədə olarkən igid şəhidimizin müxtəlif illərdə çəkdirdiyi şəkillərə, aldığı fəxri fərman və döş nişanlarına, ən əsası isə 5 medalına baxıram. «Vətən uğrunda», «Kəlbəcərin azad olunmasına görə», « Hərbi xidmətinə görə» və başqa medallar doğrudan da onun əməyinə, şücaətinə, nə nəhayət qəhrəmanlığına dövlətimiz tərəfindən verilən qiymətdir. O, şirvanlıların qürur yeri olan «Şəhidlər Xiyabanı»nda dəfn olunmuşdur.

Mən şəhidimiz, igid kəşfiyyatçı Namiq Xəlilovun doğulub boya-başa çatdığı fərdi evin qarşısında olarkən orada 5-6 inşaatçının işlədiyini, abadlıq işləri apardıqlarını gördüm. Yaxınlaşıb öyrəndim ki, Şirvan şəhər rəhbərliyinin göstərişi ilə Namiqin xatirəsinə hörmət əlaməti olaraq burada 20 kvadrat metrlik sahədə döşəmə, abadlıq işləri görürlər.

**Musaxan HEYDƏRLİ,**
**«İŞIQ»ın ictimai müxbiri**

**Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ili Azərbaycanın tarixinə qızıl hərflərlə yazdı. Prezident Azərbaycanın müstəqil dövlət kimi güclənməsini, milli maraqlara söykənən müstəqil siyasət yürütməsini təmin edərək onu Cənubi Qafqazın ən güclü dövlətinə, dünyada söz sahibinə çevirdi.**

## Bələdiyyə həyatı

# 2020-ci ili uğurla başa vurduq



Zəfərlə yola saldıqımız 2020-ci il hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur. Ötən ilin uğurlarında şəhərimizin əməksevər insanlarının da rolu böyükdür. Müsahibimiz Şirvan Bələdiyyəsinin sədri **Kürdoğlu Muradovdur.** Söhbət zamanı sədr dedi:

-Hər ilin əvvəlində olduğu kimi, Prezident İlham Əliyev bu dəfə də ötən ilin yekunlarına həsr olunmuş müşavirə keçirdi, amma həm məzmun, həm də formaca əvvəlkindən fərqli. Dünyada hökm sürən koronavirus pandemiyası ilə əlaqədar builki müşavirə videoformat şəklində aparıldı. Lakin fərq təkcə bu deyildi. Müşavirənin məzmununun da özəlliyi vardı və bu ondan ibarət idi ki, əslində ölkəmizin, xalqımızın həyatının tək bir ilinə deyil, son üç onilliyinə yekun vuruldu. Dövlət başçısı bunu müşavirənin başlanğıcında belə vurğuladı. "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır."

Azərbaycan 2020-ci ilin sınaqlarından zəfərlə çıxdı. Mənfur düşmənin ayaqları altında illərdir inləyən torpaqlarımızda, dağıdılıb talan edilən yaşayış məntəqələrimizdə Azərbaycan bayrağı yüksəldi. Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyümüzün bərpası oldu. Sentyabrın 27-də başlanan 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu.

Bütün bunlar qəlbimizi qürur hissi ilə doldurur, hər kəsi çalışdığı sahədə daha inamla işləməyə, şəhərin sosial-iqtisadi inkişafına töhfə verməyə səsləyir. Onu da qeyd edim ki, 2020-ci ildə Şirvanda İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun rəhbərliyi ilə pandemiyaya qarşı ardıcıl olaraq çox ciddi kütləvi tədbirlər, dezinfeksiya işləri aparılıb və eyni zamanda genişmiqyaslı quruculuq və abadlıq işləri davam etdirilib. Şəhid ailələri, Vətən Müharibəsi qazilərinin problemləri də öz həllini tapır. Şirvan Bələdiyyəsi də bu tədbirlərdən kənarda qalmayıb İcra Hakimiyyəti ilə əlbir işləyərək pandemiyaya qarşı mübarizədə öz köməyini əsirgəməyib. Belə ki, ötən müddət ərzində az təminatlı, imkansız ailələrə bələdiyyə öz imkanı daxilində maddi kömək göstərib. Bütün bununla yanaşı Şəhidlər xiyabanında hasar, su hovuzu, gümbəz yenidən rənglənib.- Yaşıllıq sahəsindədə xeyli işlər görülüb, kanallar təmizlənib, ağaclara aqrotexniki qulluq edilib. Şəhərin L.t.İbrahimov küçəsi 14 saylı binanın, M.Ə.Rəzulzadə 17, 17/1, 17/2 saylı binaların, T.İsmayılov küçəsi 2,5,11A, və 15 saylı binaların qarşısındakı məhəllələrdə təmir və abadlıq işləri aparılmışdır. Şəhərin Energetik küçəsindəki 5 nömrəli binanın qarşısında şəhid Nihat Rəhimlinin xatirə lövhəsi vurulmuş, Hacıqəhrəmanlı qəsəbəsində Aprel döyüşlərində şəhid olmuş Ərəbli Rahil Rafiq oğlunun xatirə lövhəsi, şəhərin el qəbiristanlığında şəhid Əliyev Cəmaləddin Mətləb oğlunun başdaşı, Şəhidlər xiyabanında Mirzəyev Mahir Talıb oğlunun məzarı üzərindəki şəkili yenisi ilə əvəz olunmuşdur.

1 May küçəsində şəhid Kərimov Vüqar Yadigar oğlunun və şəhid Quliyev İmran Nəriman oğlunun xatirəsini əbədiləşdirmək məqsədi ilə abidə kompleksinin tikintisi başa çatdırılmışdır.

M.Mirzəyev küçəsində yaşayan Məmmədova Cəmilə Fərhad qızına yanmış evinin bərpası məqsədi ilə tikinti materialları ilə kömək göstərilmişdir. Şəhid bacısı Rəsulova Bəhruzə Rəsul qızına da tikinti materialları ilə kömək göstərilmişdir.

Hər il olduğu kimi, ötən ildə də, Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələrindən qanunsuz istifadə olunmasına qarşı da mübarizə aparılmışdır. Belə ki, yaşadıqları həyətlərdən Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələrindən faktiki qanunsuz istifadə edən 24 şəhər sakini ilə maarifləndirmə işləri aparılmış, 24 şəhər sakininə isə rəsmi xəbərdarlıq məktubları göndərilmişdir.

Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələri barədə aylıq, rüblük və illik hesabatlar, o cümlədən Bələdiyyənin ehtiyat fondu, Perspektiv inkişaf fondu, ümumi istifadədə olan torpaq sahələri, kənd təsərrüfatına az yararlı və yararsız torpaqlar, özgəninkiləşdirilmiş və ya icarəyə verilmiş torpaq sahələri barədə məlumatları hazırlanaraq torpaqların elektron uçot sistemində daxil edilməsi üçün müvafiq orqanlara təqdim olunmuşdur. Bələdiyyə mülkiyyətində olan torpaq ehtiyatlarından düzgün, təyinatına uyğun istifadə edilməsi, torpaq sahələrinin münbitliyi, ekoloji şəraitin yaxşılaşdırılması, onun zəbt olunması hallarına qarşı tədbirlərin gücləndirilməsi, bu sahədə nöqsanların aradan qaldırılması üçün daimi reydlər keçirilir və şəhər əhalisi arasında maarifləndirmə işləri aparılır.

Fəaliyyətimiz göz qabağındadır. Gördüyümüz işlər barədə vaxtaşırı seçicilərə məlumat çatdırılır.

**Müsahibəni**
**Rasim NƏHMƏDOV**
**apardı**

# Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2021-ci ilin birinci rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1. | Şirvan şəhəri, 22 saylı Nümunəvi məhəllə | 06.01.2021 | Prokuror Fuad Məmmədov |
| 2. | Şirvan şəhəri, Bayramlı qəsəbəsi | 29.01.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 3. | Şirvan şəhəri, Hacıqəhrəmanlı qəsəbəsi | 03.02.2021 | Prokuror Fuad Məmmədov |
| 4. | Şirvan şəhəri, Məcburi köçkünlərin yeni qəsəbəsi | 26.02.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 5. | Şirvan şəhəri, »Telekommunikasiya» qovşağı. | 02.03.2021 | Prokuror Fuad Məmmədov |
| 6. | Şirvan şəhəri, 17 saylı Nümunəvi məhəllə. . | 30.03.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |

**Fuad Məmmədov,**
**Şirvan şəhər prokuroru baş ədliyyə müşaviri**

# Əhalinin peyvənd olunması işlərinə başlanılıb



**Koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi, diqqət və qayğısı ilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində Şirvan Şəhər Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsində əhalinin vaksinləşmə prosesinə başlanılmışdır.**

Başlanan bu mühüm tədbirlə bağlı Xəstəxananın infeksion şöbəsinin binasında xüsusi vaksin otaqları və burada peyvəndlərin aparılması üçün TƏBİB-in təlimatlarına uyğun zəruri şərait yaradılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvənd olunacaq.

Strategiyanın əsas məqsədi ölkədə geniş yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Hazırda Şirvan şəhərində də strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri peyvənd olunur.




# QİSAS QİYAMƏTƏ QALMAZ: XOCALI SOYQIRIMI

**Xalqımızın qan yaddaşında yaşayan faciələrdən biri də Xocalı faciəsidir. XX əsrin qanlı faciəsini təkrar xatırlatmağımız həmişə lazım gələcəkdir. Çünki, həmin soyqırım təkcə türk millətinə qarşı deyil, eləcə də insanlıq əleyhinə qarşı ermənilərin törətdiyi terror aktı idi.**



1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni yaraqlılarının Xocalı şəhərində mülki əhaliyə qarşı həyata keçirdiyi soyqırım azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizlənmə məqsədinə söykənirdi. Bir xalqın, bir millətin yer üzündən silinməsinə yönəldilmiş Xocalı soyqırımını həyata keçirənlərə dəstək isə, Sovet ordusunun 366-cı motoatıcı alayından idi. Ağır texnika və odlu silahlarla yaraqlanan ermənilər xalqımıza qarşı amansızlıqlar etdi, evlər yandırıldı, təsərrüfatlar dağıdıldı, dinc sakinlər qətlə yetirildi. Xalqımıza qarşı törədilən bu vandalizm hadisəsi nəinki, azərbaycanlılara, bütövlükdə bəşəriyyətin mütərəqqi dəyərlərinə, eyni zamanda beynəlxalq hüquqların normalarına qarşı tuşlanan bir genosid aktı idi.

Fevralın 25-dən 26-na keçən gecə 1992-ci ilin ən qanlı olayları savaşına daxil oldu! Erməni millətçiləri, havadarları olan rus silahdaşlarının dəstəyi ilə, bir gecənin içərisində, o cümlədən 63 uşağı, 106 qadını, 78 nəfər qocanı milli zəmində amansızlıqla qətlə yetirdi. Bu tükürpədici, qanlı faciədə 8 azərbaycanlı ailəsi bütövlükdə məhv edldi. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Yerli sakinlərdən 500 nəfərə yaxın şəxs ağır dərəcədə yaralar aldı, amansız işgəncələrə məruz qoyuldu. 1275 nəfər günahsız mülki şəxs qoca, uşaq, gənc qadın və qızlarımızı ermənilər əsir, girov götürdü.

1992-ci ilin 26 fevralında Ermənistan hərbi birləşmələrinin xalqımıza qarşı həyata keçirdiyi planlaşdırılmış qətliyamdan illər keçməsinə baxmayaraq 150 nəfərin taleyindən hələ də heç bir məlumat yoxdur.

İllər keçsə də Azərbaycan xalqına qarşı etnik təmizləmə «hərəkatı»unudulmayıb. Azərbaycanlılar həmin faciənin dünya dövlətləri tərəfindən tamamilə ədalətli şəkildə tanınmasını istədi. Xalqımız ermənilərin, millətimizə yaşatdığı amansız və ədalətsiz qətliyamın ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymətləndirilməsini, insanlıq naminə cinayətkarı cəzalandırmığı tələb edir.

Otuz ilə yaxın bir müddətdə dünya birliy, i o cümlədən ermənipərəst dövlətlərin səlahiyyətliləri, bu çağırışa göz yumdu. Erməni seperatçılarının zəbt etdiyi Qarağabda dağıdılmış yurd yerləri, məzarlıqlar, ulularımızın ruhu qisas qiyamətə qalmasın»! - deyə haray çəkdi.

2020-ci il sentyabrın 27-də düşmən bir neçə istiqamətdən müxtəlif növ silahlardan, ağır aritilleriyadan istifadə edərək təmas xəttindən ərazilərimizə hücüm etdi.

Ordumuzun bölmələri hücümün qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə ordumuzun əks-hücüm əməliyyatı Vətən müharibəsi kimi davam etdirildi.

Azərbaycan Silahlı Qüvvələrinin rəşadətli əsgər və zabitləri, hərbi heyəti yüksək ruhda «Zəfər bizimlədir» dedilər. Onlarca kəndimiz, şəhər və rayonlarımız düşmən əsarətindən azad edildi. Qarabağ Azərbaycandır!

... Tarixə ən dəhşətli soyqırım kimi düşən Xocalı faciəsi erməni qəddarlığı eyni zamanda erməni talanları, vəhşilikləri yüzilliklər keçsə də unudulmayacaq! Xocalının şəhid qəhrəman övladlarının xatirəsi hər zaman əziz tutulacaq.

**Həmidə FAZİLQIZI,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

## UNUTSAQ, UNUDARLAR

# KEŞMƏKEŞLİ HƏYAT YOLU KEÇMİŞ MƏHKƏMƏ SƏDRİ...

**Bu yazımda ömrünün 58 ilini hüquq-mühafizə orqanlarına həsr edən, vaxtı ilə digər vəzifələrdə fəaliyyət göstərmiş və Böyük Vətən müharibəsi döyüşlərinin iştirakçısı mərhum Əliyev Şahmalı Alışan oğlu haqqında söhbət açmaq istərdim. Ziyarətinə tez-tez getdiyim, bizi əzizləyən, maraqlı söhbətləri ilə könlümüzü oxşayan bu şəxs həmişə yaxınlarının, tanıdığı insanların və hər kəsin rəğbətini qazanmışdır.**



Əliyev Şahmalı Alışan oğlu 1922-ci il sentyabr ayında, payızın gözəl çağında Qarabağın dilbər guşələrindən olan Ağdərə rayonunun Sırxavənd kəndində anadan olmuşdur. Qarabağın zəhmətkeş insanlarının yaşadığı Ağdərə rayonu ayrı bir cənnətməkan yer idi. Mərhum babam burada orta təhsilini aldıqdan sonra Böyük Vətən müharibəsi başlanır. O cəbhəyə yollanıb döyüşlərə qatılmalı olur. Müharibə zamanı atıcı briqadasında ön sıralarda döyüşüb. Öz yurdundan uzaq yerlərdə-Moskva, Ukrayna cəbhələrində - Stavropol, Simferopol, Xarkovda, Belorusiyanın və Qafqazın digər cəbhələrində faşistlərə qarşı mübarizə aparmış, döyüş yoldaşları ilə mühüm əməliyyatlarda iştirak etmişdir. Müharibədə bir neçə dəfə yaralanmasına baxmayaraq müalicədən sonra döyüşlərə qatılmışdır. Müharibədən geri dönərkən onun sinəsini orden və medallar bəzəyib. Həmçinin ona təşəkkür məktubları, tərifnamələr verilmişdir. "Moskvanın müdafiəsinə görə", "Simferopolun müdafiəsinə", "Qafqazın müdafiəsinə görə" döyüş medalları cəsur əsgərə verilən qiymətdir. O hətta müharibə zamanı orduda siyasi rəhbər olaraq fəaliyyət göstərmişdir.

Müharibədən geri döndükdən sonra o Ağdam Pedaqoji Texnikumunda oxumuş, sonra Bakıda hüquq texnikumunu bitirmişdir. O bir müddət Qarabağ bölgələrində müəllim işləyərkən Kəlbəcərin Ağdaban kəndində də fəaliyyət göstərmiş, burada Dədə Aşıq Şəmşir ilə daim ünsiyyətdə olmuş, onun evində bir müddət qonaq kimi qalmışdır. Həmişə Dədə Şəmşirin sazlı-sözlü məclislərində iştirak etmişdir. Daha sonra o Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakültəsini, sonra İqtisad Universitetinin Ticarət İqtisadiyyatı fakültələrini fərqlənmə diplomları ilə bitirmişdir. Ali təhsil ocaqlarında qazandığı biliklər həyat yolunda onun köməyinə çatmışdır.

Ağdərədə, Kəlbəcərdə, Qazaxda,Əli Bayramlı (İndiki Şirvan) Bakı şəhərlərində məsul vəzifələrində çalışmışdır. Ağdərə rayonunun Narıştar kəndində məktəb direktoru vəzifəsində çalışan Ş.Əliyev kənd sovetinə sədr də seçilmlşdir. Daha sonra keçmiş Əli Bayramlıya gəlmiş, burada 15 il məhkəmə sədri kimi fəaliyyət göstərmişdir. O yorulmaq bilmədən çalışır, qanunlarımızın aliliyinə ciddi əməl edirdi. Təcrübəli ədliyyə işçisi sonra Qazax rayonunda bir müddət məhkəmə sədri vəzifəsində işləmişdir.

1969-cu ildənVəkillər kollegiyasına üzv seçilmişdir. Həmin ildən başlayaraq vəkil kimi fəaliyyət göstərmişdir. 1971-74-cü illərdə dövlət idarələrində göstərdiyi xidmətlərə görə 3-cü dərəcəli "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

İllər keçir. Harada işləməsindən asılı olmayaraq yeni-yeni uğurlar qazanır və hamının daha çox rəğbətini qazanır. Bu onun səmimiliyi, işinə vicdanla yanaşması, əməksevərliyi ilə bağlı idi. Daha sonra o 1985-ci ildə "Əmək veteranı"medalı, "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Faşizm üzərində qələbənin 40 illiyi münasibəti ilə ona tərifnamə verilmişdır. Müstəqillik illərindən sonra da öz vəzifəsində çalışmış bu yolda uğurla irəliləmişdir. O Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasıın üzvu olmuşdur. Vəkil kimi fəaliyyət göstərdiyi müddətdə fərqlənmişdir.

O zəhmətkeş ailədə böyümüşdür. Atası Alışan kişi əməksevər təsərrüfatçı idi. Anası Bəsti arvad də zəhmətkeş evdar qadın idi. Qardaşları Qara, Cəmil, Şəmil, bacısı Samara ilə birgə böyümüş onlar da qardaşları Şahmalı kimi el, obaya, vətənə xeyirli şəxslər olmuşlar. 23 yaşında ikən ailə həyatı qurmuş yoldaşı Səmayə evdar qadın olmuşdur. Zaman keçdikcə üçü oğul və beşi qız olmaqla səkkiz övlad sahibi olmuşdur. Oğul övladları: Şakir, Zakir, Namiq, qız övladları Raya, Sara, Rəfiqə, Aybəniz, Bəsti adlı övladları ata-ana yolunu layiqincə davam etdirirlər. Övlad və nəvələr sahibidirlər.

Babam həddindən artıq səmimi insan idi. Bizə qonşulara qarşı diqqətli, qayğıkeş idi. Başına gələn əhvalatlardan, iştirak etdiyi müharibədən, yaşayıb gəzdiyi yurdlardan, ələlxüsus Qarabağdan elə söhbət açardı ki, biz hər zaman ona diqqətlə qulaq asıb danışdıqlarını təsəvvürümüzdə xoş xatirəyə çevirirdik. Daim çalışqan olmağımızı, biliklərimizi artırmağı, vətən və millət üçün xeyirli şəxslər olmağımızı, yurdumuzun, el-obamızın qədrini bilməyi həmişə bizlərə tövsiyə edirdi.

O 2006-ci ilin sentyabrında, 84 yaşında gözlərini həyata əbədi yumdu. O həyatda olarkən vəsiyyət edib demişdi ki,dünyadan köçəndə məni Qarabağkəndimiz Sırxavənd istiqamətində dəfn edin. Qarabağ mənim torpağım, mənim nəfəsim, canım, ruhumdur.

Bu torpağın erməni işğalçılarından azad olunacağına əminəm.

Bu gün artıq Qarabağ bizimdir. Vətən həsrətimiz bitib. Onu bizlərə Şanlı Ordumuz Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə düşməndən azad edərək bizlərə qaytarmışdır. Allah vətən uğrunda fədakarlıq göstərmiş qazilərimizə cansağlığı versin, şəhidlərimizə rəhmət eləsin!

**Musa Məmmədli**

# Vətən Müharibəsindən sonra qayğılarımız artıb

## QAZİLƏR TİBBİ XİDMƏTDƏN RAZIDIRLAR









**Şirvan Reabilitasiya Mərkəzi 2004-cü ildən fəaliyyət göstərir. Mərkəz 9 rayonun 18 yaşdan yuxarı bütün kateqoriyalarda olan əlillərinə tibbi reabilitasiya xidməti göstərir.**

Mərkəzin məqsədi əlillərə tibbi reabilitasiya müalicəsi göstərməklə cəmiyyətə inteqrasiyasını təmin etməkdir.

Burada əlillər həm stasionar həm də ambulator müalicə olunurlar. Mərkəz 2020-ci ilin oktyabr ayından əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Yenilik olaraq mərkəzdə tibbi reabilitasiya şöbəsindən əlavə sosial-psixoloji reabilitasiya və abilitasiya şöbəsi fəaliyyətə başlamışdır. Mərkəz yeni müasir tibbi aparatlarla və avadanlıqlarla təchiz olunmuşdur.

Bunlardan onurğada baş verən dəyişikliklər zamanı müalicəvi traksiya aparatı, müalicəvi bədən tərbiyəsi üçün çiyin, dirsək, ayaq üçün lakomatlar, elektroterapiya müalicəsi üçün limfadrenaj, maqniterapiya və digər kombinə olunmuş aparatları göstərmək olar.

Reabilitasiya Mərkəzində elektroterapiya, termoterapiya, hidroterapiya, hovuz, masaj, parafin otaqları fəaliyyət göstərir.

Hal-hazırda mərkəzdə sosial-psixoloji reabilitasiya layihəsinin işi aparılır. Layihənin məqsədi 44 günlük Vətən Müharibəsində iştirak edən yaralı və sağlamlıq imkanlarını qismən itirmiş əsgərlərimizə və şəhid ailələrinə, onların birinci dərəcəli qohumlarına psixoloji xidmət göstərməkdir. 40 nəfərə yaxın tibbi vətexniki şöbənin işçisi bu vəzifəni layiqincə yerinə yetirmək üçün əllərindən gələni əsirgəmirlər.

Bundan əlavə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkil etdiyi əsgərlərə dəstək proqramı əsasında yaralı qazilərimizə baxış keçirilir, qiymətləndirmə aparılır.

Son iki ayda 50 nəfərə yaxın bu qisimdən olan pasientlərə tibbi xidmət etmişik. Onların hər hansı protez ortopedik vasitələrə ehtiyacı, eləcə də sosial vəziyyəti haqqında məlumatlar aparılır.

Vətən uğrunda döyüşmüş əsgərlərimizə, ümumiyyətlə bizə müraciət edənlərə dəstək hər birimizin vəzifə və vətəndaşlıq borcudur. Bunun üçün kollektivimiz imkanlarından maksimim istifadə edir.

**Mehriban Siracova,**
**Mərkəzin direktoru**

*SABAHIN ALİMLƏRİ" X RESPUBLİKA MÜSABİQƏSİ*

# "SABAHIN ALİMLƏRİ" RESPUBLİKA MÜSABİQƏSİNİN ŞİRVAN TƏMSİLÇİLƏRİ...

**"Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz!"**

***Nizami Gəncəvi***



**2012-ci ildən start götürmüş "SABAHIN ALİMLƏRİ" Respublika Müsabiqəsi bu il X mərhələyə qədəm qoyur. "İNEPO-AVRA- SİYA" Layihə Olimpiadalarında olduğu kimi bu müsabiqədə də şəhərimizi ilk dəfə və davamlı surətdə təmsil edən, respublikada xüsusi istedadlı şagirdlər liseyi kimi fəaliyyət göstərən S.Hüseynov adına 1№li tam orta məktəbdir. Məktəbimiz artıq 5-ci ildir ki, bu müsabiqədə şəhərimizi ləyaqətlə təmsil edir, məktəbimizə bu müsabiqənin sertifikatlarını gətirir. İlk dəfə 2, sonrakı illərdə isə hər il 3 layihə ilə bu müsabiqədə təmsil olunmuşuq. Bu il isə yeni bir uğura da imza atmışıq: təqdim etdiyimiz 5 layihədən 4-ü Elmi Ekspertiza Komitəsiniin müsbət rəyini alaraq X Respublika Müsabiqəsində iştiraka vəsiqə alıb. Xatırladırıq ki, bu ilki müsabiqə üçün qeydiyyatdan keçmiş 226 layihədən yalnız 123-ü uğur qazanıb ki, bunladan da 12-si Şirvan məktəblərinin payına düşür: S.Hüseynov adına 1№li tam orta məktəb - xüsusi lisey:**

riyaziyyat- "RİYAZİ İSBATIN MƏNTİQİ ÜSULLARI" (layihə müəllifi Məmmədzadə Aytac Azər qızı, elmi rəhbər - Rəfail Əliyev),

fizika-astronomiya- "ALTERNATİV VƏ REGENERATİV ENERJİ-TÜKƏNMƏZ ENERJİ POTENSİALI" (müəlliflər Ayna Əliyeva və Nazilə Gözəlova, elmi rəhbər Rəfiqə Rzayeva),

kimya- "PESTİSİDLƏR: NÖVLƏRİ, TƏTBİQİ, FAYDASI VƏ ZƏRƏRİ"(müəllif Aytən Ələkbərova, elmi rəhbər Təranə Tağıyeva),

mühəndislik - "MÜASİR "ELEKTRON SEÇİCİ" QURĞUSU(müəllif Cavad Mahmudlu, elmi rəhbər Xanım Əkbərzadə) layihələri ilə şəhərimizi təmsil edəcək.

Şirvan şəhər 13 №li tam orta məktəb də bu müsabiqədə fizika-astronomiya və biologiya nominasiyaları üzrə 2 layihə ilə, şəhərimizdəki Kimya Biologiya Təmayüllü Respublika Liseyi isə şəhərimizi müxtəlif nominasiyalar üzrə 6 layihə ilə təmsil edəcək.

Sevindirici haldır ki, Şirvan təmsilçilərinin sayı ilbəil artır. Ancaq çox təəssüf ki, bu müsabiqəyə şəhərimizdə cəmi 3 təhsil ocağı qoşulub. Unutmayaq ki, bu müsabiqədə iştirak edən şagirdlərin elmi potensialı, fənlərin elmi əsaslarını öyrənmə, tədqiqatçılıq marağı durmadan artır. Heç təsadüfi deyil ki, IX müsabiqədə iştirak etmiş X L sinfinin şagirdi Aytən Ələkbərova X müsabiqəyə də qoşuldu, yenə iştirakçı hüququ qazandı...

Şəhərimizdəki bütün təhsil ocaqlarının bu Respublika Müsabiqəsinə qoşulmasını təmin etmək vacib məsələdir. Bunun üçün bütün məktəblərdə "KİÇİK AKADEMİYA" yaradılmalı, elmi potensiallı uşaqlar elmi tədqiqatlara yönəldilməlidir.

Ümid etmək istərdik ki, gələcək müsabiqələrdə Şirvan şəhəri daha fəal olacaq, iştirakçı məktəblərin və layihələrin sayı daha da artacaq.

Şirvan şəhərinin təmsilçilərinə uğurlar arzulayırıq!

**Rəfail Əliyev, Əməkdar müəllim, "İNEPO" Layihə Olimpiadası və "SABAHIN ALİMLƏRİ" Respublika Müsabiqəsində layihə rəhbəri, "SABAHIN ALİMLƏRİ" Şirvan komandasI" facebuk qrupunun idarəçisi**


*Akif ABBASOV*

# EVDƏN, ARVADDAN...

## *(lətifəvari hekayə)*

**Şakir axşam gec yatdığından ertəsi gün yuxudan gec oyanmışdı. Saatına baxdı. 12-yə 19 dəqiqə qalırdı Bunu görüb deyinməyə başladı:**

-Pah atannan, bu pandemiya başımıza oyun açır. Bekarçılıqdan gündüz yatırıq, axşam yuxumuz ərşə çəkilir. Oyananda görürük gün günorta yerinə qalxıb. Səhər yeməyi ilə naharı bir yerdə edib bir qədər gərdiş edirsən. Üç saatlıq SMS götürüb dükanı, bazarı dolaşırsan, bir də onda görürsən ki, axşam düşüb. Bu SMS-in də bir pis xasiyyəti var. 2 saatlıq, yaxud 3 saatlıq müəyyən olunur. Bu üç saatı iki dəfəyə, üç dəfəyə götürmək olmur.

Nə isə. Şakir dünəndən planlaşdırmışdı ki, bir taksiyə oturub nəşriyyata getsin. Kitabları çıxmışdı. Onları götürüb evə gətirməli, sonra da bazarlıq etməli idi. Nəşriyyat da onlayn işləyirdi, içəri buraxmırdılar. Elə qapıdan kitabları verəcəkdilər ona ki, aparsın.

Həm də dünəndən xəbərdarlıq eləmişdilər ki, günortaya qədər işdə olacaqlar.

Şakir əl-üzünü yuya-yuya fikirləşdi: "Görəsən bunların günortaya qədəri saat neçəyə qədərdir?"

Bir istədi üzünü qırxsın, fikirləşdi ki, gecikə bilər, gəlib sir-sifətinə əl gəzdirər.

Tələm-tələsik yeməyini yeyib, mobil telefonunu götürdü. Covid-19-la bağlı yaşayış yerini tərk etmək üçün icazə almalı idi. İcazəni alandan sonra əyin-başını dəyişməyə başlasaydı, boş yerə ən azı 10-15 dəqiqə vaxt itirəcəkdir. Odur ki, paltarlarını dəyişədəyişə 8103-yə qoşuldu.

2 Aze və pasportunun seriya nömrəsini yığmağa başladı. Cavab, yəni icazə 10-15 dəqiqəyə gəlirdi: "...nomrəsi üzrə müraciətiniz təsdiqləndi. Artıq 3 saat müddətinə yaşayış yerini tərk edə bilərsiniz".

Oturub gözləyirdi. Cavab yox idi. Bir daha yığdı. Az sonra mobil telefon səsləndi. Şakir: "Şükür, axır ki, cavab verdilər", - deyə yerindən sıçrayıb gödəkçəsini geyindi. Çıxmağa hazırlaşırdı ki, ayaq saxladı:"Bəlkə hələ icazə verilməyib, kimsə mesaj göndərib. Birdən çıxaram, polislər saxlayarlar. Yaxşı düşməz".

Mobil telefonu işə saldı: "Təəccübündən yerində quruyub qaldı. 8103-dən cavab gəlmişdi: "Bu gündən icazəni evdən, arvaddan almaq lazımdır!"

"Bu nə deməkdir?"

Şakir öz-özünə sual verdi və birdən sanki ayıldı. Gülməyə başladı. Yadına düşdü: "Axı Nazirlər Kabineti bir gün əvvəl qərar vermişdi: 2021-ci il yanvarın 18-dən SMS icazəsi ləğv olunur".

**Bakı şəhəri,**
**18 yanvar 2021-ci il**

# ONLAYN DƏRSLƏR HAQQINDA TƏƏSSÜRATIM

**Dünyanı bürümüş pandemiya səbəbindən artıq bir ilə yaxındır ki, onlayn dərslərdən istifadə edirik. Əvvəllər ZOOM proqramı ilə bu dərslərə qoşulsaq da, bu gün daha mükəmməl sistem olan VİRTUAL MƏKTƏB proqramı ilə bu dərslərdə daha fəal iştirak etməklə evdə qalsaq da təhsildən geri qalmırıq. Ənənəvi təhsilə qayıtdıqda da onlayın dərslərdən də faydalanmaq istərdim.**

Onlayın dərslər bu günün tələbləri ilə səsləşən çox maraqlı, mükəmməl sistemdir. Təhsil aldığım Bakı şəhərindəki 20 №li məktəb-liseydə onlayn dərslər çox yaxşı təşkil olunub. Təhsil aldığım Vc sinfində bütün dərslərimiz çox maraqlı və səmərəli təşkil olunur.

Onlayn dərslər çox geniş imkanlara malikdir. Bu dərslər üçün məkan məhdudiyyəti yoxdur. Mən Bakıda təhsil alsam da, məktəblər fəaliyyət göstərmədiyi üçün bu dərslərə Şirvan şəhərindən qoşuluram. Hazırda nənə və babamın yanındayam. Onlar da müəllimdirlər, onlayn dərslər keçirlər. Əvvəllər bu dərslərə telefonla qoşulurdum, Şirvanda isə nootbukdan istifadə edirəm.

Onlayn dərslər geniş ünsiyyət imkanları yaratmaqla əyani dərslərlə bağlı problemləri xeyli azaldır. Bilik və bacarıqların formalaşmasında da onlayın dərslər əyani dərslərdən heç də geri qalmır. Dərslər ciddi cədvəl üzrə keçildiyi üçün özümü məktəbdə, sinif otağında hiss edirəm, verilən tapşırıqları yerinə yetirir, təqdimatlar hazırlayıram.

Onlayın dərslər, ilk növbədə, təhlükəsizliyin təminatçısıdır. İnsanlarla birbaşa təmas olmadığı üçün yoluxucu epidemiyalardan bizi çox ciddi şəkildə qoruyur.

Onlayn dərslər əyaniliyi internet üzərindən daha yaxşı təmin edir.

Lazım gəldikdə müəllimlərimizin köməyi ilə biz elektron lövhədən, müxtəlif resurslardan istifadə edə bilirik.

Onlayın dərslərlə bilik və bacarıqlarımızın yoxlanması üçün də geniş imkanlar var: müəllimlərimiz bizə müxtəlif formalı tapşırıqlar göndərərək nəticələrimizi fərdi qaydada yoxlaya bilirlər.

Onlayn dərslərdə dərs qrafiki də sərbəst ola bilir. Bəzi hallarda əyani dərslərdə əldə edə bilmədiyimiz imkanlar da qazanırıq: nəğmə dərsində müxtəlif musiqi alətlərində müəllimin ifasını dinləyir, lazım olan musiqi əsərinə onlayn qulaq asır, mövzu ilə əlaqədar video-çarxlara baxırıq və s.

Onlayn dərslərlə bağlı problemlər bəzi ailələr üçün "əlçatmaz" olan internet bağlantısı və dərslərə qoşulmaq üçün lazım olan cihazlarla bağlıdır.Bu problemi həll etmək üçün məktəblilərə pulsuz dərslik yox, planşet paylamaq daha düzgün olardı.Belə olarsa, dərsliklərin kütləvi çapına da ehtiyac qalmaz, çünki bütün dərsliklərin elektron variantını planşetə yükləyib istifadə etmək olar.

**İrəm Turalqızı,**
**Bakı şəhərindəki 20№li məktəb-liseyin V c sinif şagirdi**

## «İŞIQ»- 2021
## ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti "İŞIQ"a 2021-ci ilin 1-ci 6 ayı üçün abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır. "İşıq"a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar. H\ h- AZ39AIIB 33060019444100281141. VÖEN -2100104521. İndeks 66858
"İşıq"a - öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor:
F.N.RƏHİMOV

*Təsisçilər:*
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650